**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# İBN ƏL-CÖVZİ QIZOĞLUNUN "MİRATÜZ-ZAMAN" ƏSƏRİNDƏ AZƏRBAYCAN TARİXİ MƏSƏLƏLƏRİ

| | |
|---|---|
| İxtisas: | 5509.01-Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları |
| Elm sahəsi: | Tarix |
| İddiaçı: | **Könül Fəxrəddin qızı Sadıqova** |

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun "Tərcümə və informasiya" şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | tarix elmləri doktoru, professor<br>**Fərid Urxan oğlu Ələkbərli** |
| Rəsmi opponentlər: | tarix elmləri doktoru, dosent<br>**Tofiq Hümbət oğlu Nəcəfli** |
| | tarix üzrə fəlsəfə doktoru<br>**Nurlan Paşa oğlu Nəsirov** |
| | tarix üzrə fəlsəfə doktoru<br>**Sevinc Məlikməmməd qızı Məlikzadə** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən BED 1.30 / 1 Birdəfəlik Dissertasiya Şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri:<br>_______________ | tarix elmləri doktoru, professor<br>**Kərim Kərəm oğlu Şükürov** |
| Dissertasiya şurasının elmi katibi:<br>_______________ | tarix elmləri doktoru, dosent<br>**İlqar Vahid oğlu Niftəliyev** |
| Elmi seminarın sədri:<br>_______________ | tarix elmləri doktoru, dosent<br>**Vaqif Şirin oğlu Abışov** |

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Azərbaycan iyirminci əsrin sonlarında müstəqillik qazandıqdan sonra xalqımıza məxsus zəngin tarixi keçmişə, əsasən də Azərbaycanın orta əsrlər tarixinin bəzi problemli məsələlərinə xüsusi nəzər salmaq vacibdir. Bu da onunla bağlıdır ki, sovet dövründə Azərbaycan Yaxın və Orta Şərq xalqlarının Cənubi Qafqaza məxsus orta əsrlərdəki tarixinə dair tədqiqat işlərində türk və müsəlman xalqlarına məxsus zəngin dövlətçilik təcrübələrinə, eyni zamanda adət-ənənələrinə diqqət yetirilməmiş və müəyyən səhvlərə, təhriflərə yol verilmişdir. Dünya təcrübəsindən məlumdur ki, hər bir ölkənin tarixini öyrənmək üçün müvafiq mənbələr mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan əlyazmaların rolu misilsizdir. Əlyazmalar hər bir xalqın həm ədəbiyyatının, həm də incəsənətinin xəzinəsi sayılır. Əlyazmalar keçmişdə yaşamış elm xadimlərinin bizə miras qoyduqları olduqca dəyərli mənbələrdir. Əlyazmaların dəqiq araşdırılması və düzgün mütaliəsi bizə hər bir zaman var olmuş istər tarixi, istər mədəni, istərsə də ədəbi proseslərlə tanış olmaq imkanı yaradır.

Dissertasiya mövzusunun aktuallığını aşağıdakı konkret amillərlə izah etmək olar:

1. Tədqiqat işinin əsas mənbəyi İbn əl-Cövzi Qızoğlunun "Miratuz-zaman" əsəri VII-XIII əsr tariximizin (erkən futuhat dövründən, Səlcuq imperiyasının, o cümlədən səlcuqların Azərbaycana gəlişindən sonra yaranan tarixi prosesin) öyrənilməsi yönündə olduqca dəyərli mənbədir. Bu baxımdan da Azərbaycan tarixinin bir elm kimi qarşısında duran əsas vəzifə orta əsr ərəbdilli əlyazmalardan biri kimi bütöv adı "Miratuz-zaman fi təvarixi-l- ə`yan" (Görkəmli adamların tarixində zamanın güzgüsü) olan bu əsərin təhlili əsasında erkən futuhat dövründən etibarən Səlcuq imperiyası dövrü də daxil olmaqla Azərbaycanda baş verən hadisələrin tədqiq edilməsi, tarixi reallıqların açıqlanmasıdır;

2. Tədqiqat obyekti olan əsərin içində erkən orta əsrlər Azərbaycan tarixinə dair yeni və əksəriyyəti də digər qaynaqlarda olmayan məlumatların verilməsi onun aktuallığını daha da qabardır;

3. Həmçinin İbn əl-Cövzinin XI əsr müəlliflərindən olan, eyni zamanda da Səlcuq dövlətinin sarayında yazı işləri ilə məşğul olan “Qarsunnimə” ləqəbli Məhəmməd b. Hilal əs-Səbinin öz müşahidələrinə əsasən qələmə aldığı və dövrümüzə qədər gəlib çatmayan “Uyunut-təvarix” adlı əsərini görən və ondan öz əsərinə əlavələr edən yeganə müəllif olmasını da vurğulamaq lazımdır ki, bu fakt da əsərin dəyərini daha da artırır;

4. Araşdırmalar nəticəsində belə qənaətə gəlmək olar ki, adı çəkilən əsər bir çox Avropa və Şərq tarixçiləri tərəfindən ətraflı şəkildə tədqiq edilmişdir, lakin əsərdən Azərbaycan tarixşünaslığında demək olar ki, istifadə edilməmişdir.

“Miratuz-zaman fi təvarixi-l-ə`yan” əsəri əlyazma kimi bəşər tarixinin yaradılışından başlayaraq XIII (1257-ci ilə qədər) əsr də daxil olmaqla böyük bir tarixi zaman dilimini öz içinə alan olduqca qiymətli bir əlyazmadır. Bu böyük salnamə Azərbaycan tarixinin dərindən araşdırılmasında bizə müəyyən imkanlar verir. Lakin nəzərə almaq lazımdır ki, İbn əl-Cövzinin (bütöv adı Sibt İbn əl-Cövzi Qızoğlu) özünün də yaşadığı dövr (XII əsr) daxil olmaqla qələmə aldığı bu böyük tarixi əsərin dövrümüzə qədər gəlib çatan müxtəlif çap nüsxələri vardır. İbn Xəllikanın (1211-1282) [1] yazdığına əsasən əlyazmanın 40-a yaxın cildi olmuşdur və onların böyük bir qismi dövrümüzə qədər gəlib çatmamışdır. Əsərin dövrümüzə qədər gəlib çatan bir neçə cildi vardır. Bunlardan I cild AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun xəzinəsində D-23 şifrəsi altında mühafizə olunan dəyərli əlyazmadır. Bu əlyazma bəşəriyyətin yaradılmasından xəlifə Ömərin hakimiyyətə (634-644) gəlməsinə qədər olan tarixi bir dövrü əhatə edir və bütün MDB ölkələri arasında yeganə nüsxədir. Əlyazmanın bu cildi 286 səhifədən və 90 başlıqdan ibarətdir, XVI əsrdə üzü yenidən köçürülmüşdür. Ayrıca bir cild olaraq, Bakı nüsxəsi kimi çap edilməmişdir.

Salnamənin digər h.448-480/1056-1086-cı illəri əhatə edən cildi Türkiyədə Topqapı Sarayının muzeyində qorunub saxlanılır və

---

[1] İbn Khallikan. Biographical dictionary: [in 4 vol] / trans. Slane, M.G. – Paris: Oriental translation fund of İrland, – v.2. – 297 p.

Prof.Dr.Ali Sevim tərəfindən tədqiq edilmiş və 1968-ci ildə nəşr etdirmişdir[2].

Əsərin 1907-ci ildə James Richard Jevet tərəfindən Çikaqoda nəşr edilən digər nüsxəsi h.495-654/1102-1257-cü illəri əhatə edir. Jevet əlyazma haqqında müqəddimə hissəsində yazır: hazırki əlyazma Qraf Landberqin hazırladığı kolleksiyadandır. 1900-cu ilin yayında cənab Morris K.Jesup tərəfindən Yale universitetinə təqdim edilmişdir. No:136 şifrəsi. Əlyazma kağız üzərində yazılmışdır və yarpağın ölçüsü 114x7 düyümdür. 529-cu səhifədəki qeydə əsasən əlyazmanın surəti hicri 794-cü ildə (9 yanvar 1392-ci ildə) başa çatmışdır. Jevetin yazdığına əsasən o, 1905-ci ildə Britaniya muzeyində Leiden universitetinin Bodlean kitabxanasında "Miratuz-zaman"ın h.440-cı illəri əhatə edən müxtəlif əlyazmalarını da tədqiq etmişdir və şəkillərini çəkmişdir. Qərara gəlmişdir ki, Yale №136 ilə saxlanılan h.495-654/1101-1257-ci illəri əhatə edən "Miratuz-zaman"ın orijinal əlyazmasıdır.[3] Bu nüsxə Əlyazmanın VIII cildidir. Böyük tarixçi, akademik Z.Bünyadov da öz tədqiqatlarında bu nəşri əsas götürmüşdür[4] və cildin ABŞ-dan gətirtdiyi mikrofilmini də AMEA-nın Əlyazmalar İnstitutuna təqdim etmişdir. Əsərin 2013-cü ildə Beyrutda nəşr edilən[5] 23 cildininin içindən Azərbaycana aid məlumat verilən bütün cildlərini də tədqiqata cəlb etmişik. Ancaq bu nəşrin əsli ilə rastlaşmadıq.

Salnamənin h.345-447/957-1056-cı illəri əhatə edən bir nüsxəsi Cənan Cəlil Muhamməd əl-Hamavundi tərəfindən "Miratuz-zaman fi tərixi-l-ə`yan" olaraq 1990-cı ildə Bağdadda Daru-l vataniyyədə nəşr edilmişdir. Əlyazması Britaniya muzeyində №4619 şifrəsi ilə saxlanılır. Nüsxəsi İraq Elmlər akademiyası

---

[2] شمس الدين ابن المظفر يوسف بن قزاوغلى سبط ابن الجوزي. مراة الزمان في تواريخ الاعيان.- انقرة: مطبعة لجمعية التاريخية التركية، - ١٩٧٨- ٢٧٥ ص

[3] Jewett, J.R. Mirata`z-zaman fi Tarixi-l a`yan (A.H.495-654) - at Sams Ad-din Abu`l-Muzaffar Yusif ben Qizughlu ben Abdullah Sibt ibn al-Jauzi / J.R.Jewett. – Chicago: The univercity of Chicago press, – 1907. – p.534

[4] Bünyadov, Z. Azərbaycan Atabəyləri dövləti: 1136–1225–ci illər / Z.Bünyadov. – Bakı: Şərq-Qərb, – 2007. – 268 s.

[5] شمس الدين ابي المظفر يوسف قزاوغلي بن عبد الله بسبط ابن الجوزي مراة الزمان في تواريخ الاعيان https://archive.org/details/FP144301/00_144301/mode/1up

kitabxanasında №1349 şifrəsindədir. “Miratuz-zaman”ın h.345-447/956-1056-cı illərini əhatə edir. 468 səhifədən ibarətdir.[6]

Əsərin birinci cildi Dr.İhsan Abbas tərəfindən 1985-ci ildə Beyrutda Dar əş-şuruq nəşriyyatında “Miratuz-zaman fi tərixi-l-ə`yan” kimi,[7] h.481-517/1088-1123-cü illəri əhatə edən hissəsi Müsəffər ibn Salim əl-Ğamidi tərəfindən 1978-ci ildə nəşr edilmişdir və 831 səhifədir.[8]

Dissertasiyada “Miratuz-zaman” əsərinin indiyə qədər nəşr edilən bütün hissələri, mövcud olan əlyazma və nüsxələrinin siyahısı çıxarılmış, İbn əl-Cövzünün həyat və yaradıcılığı, dövrü, əsərin yazılma tarixi, metodu, əhatə etdiyi tarixi dövr və Azərbaycana aid məlumatlar seçilərək tədqiq edilmişdir. Salnamənin biri müxtəsər, digəri müfəssəl olmaq üzrə fərqli nəşrləri vardır. Əsərin 2013-cü il Beyrut nəşrinin üzərində apardığımız tədqiqatlara əsasən, salnamənin V və VII cildlərindən başlayaraq, Azərbaycan tarixinin erkən futuhat dövrünə aid məlumatlar vardır. V cildin 270-ci səhifəsində h.18/639-ci il, Xəlifə Ömərin hakimiyyəti illərində Azərbaycanın Xilafət tərəfindən fəthi, Nihavənd döyüşü, XI cild h.112/730-731-ci ildən başlayaraq Xəzər xaqanlığı ilə xilafət arasında olan münaqişələr, XII cild h.134/751-752-ci illərdə Azərbaycanda, xüsusilə Həmədan, Rey şəhərlərində baş verən hadisələrdən bəhs edilir, Azərbaycana, Ərməniyyəyə təyin edilən valilər haqqında məlumatlar verilir. XIV cild səhifə 55-dən etibarən Azərbaycan haqqında, h.209/824-825-ci illərdən başlayaraq Babək Xürrəmi üsyanının getdikcə daha da artıb yayılmasından bəhs edilir. XV cild h.266/866-867-ci illər Xürrəmilər üsyanının son dövrləri barəsində məlumatlar vardır. XVI cild h.292-317/904-930-cu illəri əhatə edir, Azərbaycan şəhərlərindən Bərdə, Həmədan, Marağa, İsfahan şəhərlərinin adı çəkilərək müxtəlif illərdə orada baş verən hadisələrdən bəhs edilir. XVII cild h.318-

---

شمس الدين ابي المظفر يوسف قزاوغلي بن عبد الله سبط ابن الجوزي. مراة الزمان في تاريخ الاعيان /دراسة و تجقيق جنان جليل محمد الهموندي.ـ بغداد: الدار الوطنية ـ ١٩٩٠ـ٤٦٧ ص.

[7] سبط ابن الجوزي يوسف قزاوعلي مراة الزمان في تاريخ الاعيان/ تحقيق: احسان عباس.ـ بيروت: دار الشروق ـ ١٩٧٥.ـ٤٧٦ ص.

[8] سبط ابن الجوزي. مراة الزمان في تاريخ الاعيان / تحقيق و دراسة: ـمسفر بن سالم الغامدي . ـ بغداد :ام القرئ،ـ ١٩٧٨. ـ ٧٣١ ص

372/ 931-983-cü illəri, XVIII cild h.373-447/984-1055 ci illəri əhatə edir. Bu cildlərdə Azərbaycan haqqında az da olsa məlumatlar vardır.

XIX-XXII cildlərdə Səlcuq İmperiyası, daha sonra Atabəylər dövləti barəsində verilən məlumatların Azərbaycan tarixinin öyrənilməsində muhum rolu vardır. Bu cildlər 1057-ci ildən etibarən müəllifin ölümünə qədər, 1257-ciilədək davam edir. Həmin dövrlər Səlcuq imperiyasının qurulmasından etibarən Azərbaycanda Səlcuqlu hakimiyyəti barəsində çoxlu məlumatlara rast gəlinir. Bu cildləri əhatə edən illər 1907-ci il Jewet nəşri, Topqapı muzey nüsxəsi, Beyrutda Cənan Cəlil tərəfindən edilən nəşr, həmçinin 2013-cü il Beyrut nəşri ilə üst-üstə düşür. Dissertasiyada bu cildlərin tədqiqinə xüsusi yer verilmişdir. Çünki XIX-XXII cildlərin yazılma tarixi müəllifin yaşadığı dövrlərə daha yaxındır. Həmin dövr hadisələri müəllifin özünün də müşahidə etdiyi üçün, "Miratuz-zaman" əsərinin əsas hissəsi kimi də qeyd etmək olar. Həmin dövr tariximizin öyrənilməsində əsərin xüsusi rolu vardır.

XI əsrin orta dövrlərində Azərbaycan, o cümlədən Arran oğuz tayfalarının daha çox yayıldığı ərazilərin önündə gəlirdi. F.Sümərin də yazdığı kimi, "*Anadolunu tutaraq oradakı türkçülüyü uzun müddət qoruyub saxlayan, inkişaf etdirənlər məhz Azərbaycandakı çoxsaylı Oğuz tayfaları olmuşdur*"[9]. Belə ki, Azərbaycan, xüsusilə də Aran bölgəsi Səlcuq dövlətinin tarixində mərkəz rolunu ifa etmişdir.[10] Əsər Səlcuq imperiyası, xüsusilə də Toğrul bəy, Alp Arslan və Məlikşahın hakimiyyəti illərində Azərbaycan tarixinin öyrənilməsi və tədqiq edilməsi baxımından diqqətəlayiqdir.

Tədqiqat işinin yazılmasında əsas mənbə olaraq "Miratuz-zaman fi təvarixi-l-ə`yan" əsərinin əlyazması və çap nüsxələri ilə yanaşı müxtəlif türk, ərəb, rus, urdu, avropalı və təbii ki, yerli tarixçilərin əsərlərindən də qaynaq kimi geniş şəkildə bəhrələnmişik. Ən çox istinad edilən tanınmış Azərbaycan tarixçilərinin əsərləri olmuşdur. Bunlardan: Z.Bünyadovun "Azərbaycan Atabəyləri

---

[9] Sümer, F. Oğuzlar / F.Sümer, tərc ed. R. Əsgər. – Bakı: Yazıçı, – 1992. – 126 s.

[10] Nəcəfov, Ə.N. Səlcuqlu dövlətləri və Atabəyləri tarixi (Oğuzların ortaya çıxmasından XIV əsrə qədər) / Ə.N.Nəcəfov. – Bakı: Qanun, – 2010. – 3 s.

dövləti”[11] adlı əsərdə Sibt ibn əl_Cövzi haqqında məlumat vermişdir, “Azərbaycan VII-IX əsrlər” [12] kitabından tariximizin feodal dövlətlərinin yaranmasına qədər ki dövrünü öyrənmək üçün dəyərli mənbədir, N.Vəlixanlının “Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər[13], M.Şəriflinin “X əsrin ikinci yarısı XI əsrlərdə Azərbaycan feodal dövlətləri” [14], Y.Mahmudovun “Azərbaycan tarixi”[15], “Azərbaycan qısa dövlətçilik tarixi”, kitabları intibah dövrü tariximiz barəsində məlumat almaq olar. Z.Məmmədovun “Orta əsr Azərbaycan filosofları və mütəfəkkirləri” [16], S.Aşurbəylinin “Şirvanşahlar dövləti” [17], “Bakı şəhərinin tarixi” [18], F.Ələkbərlinin “Şərqin min bir sirri” [19], X.Qasımovun “Orta əsrlərdə Azərbaycan mədəniyyəti”[20], Mahmud İsmayılın “Azərbaycan tarixi”, Vəlidi Əhməd Zəkinin “Azərbaycanın tarixi coğrafiyası” [21], A.Bakıxanovun “Gülüstani-İrəm”[22], Yeganə Gözəlovanın “Orta əsrlərdə Avrasiyanın

---

[11]Bünyadov, Z. Azərbaycan Atabəyləri dövləti: 1136-1225-ci illər / Z.Bünyadov. – Bakı: Şərq-Qərb, – 2007. – 268 s.

[12] Bünyadov, Z. Azərbaycan VII–IX əsrlər / Z.Bünyadov. – Bakı: Şərq-Qərb, – 1989. – 336 s.

[13] Vəlixanlı, N. Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər / Bakı: Elm, – 2016. – 480 s.

[14] Şərifli, M.X. IX əsrin II yarısı – XI əsrlərdə Azərbaycan feodal dövlətləri / M.X.Şərifli. – Bakı: Elm. – 2013. – 440 s.

[15] Mahmudov, Y. Azərbaycan tarixi. İntibah dövrü: IX əsrin ikinci yarısı–XIII əsrin əvvəlləri / Y.Mahmudov. – Bakı: Altay dünyası, – 1996. – 84 s.

[16] Məmmədov, Z. Orta əsr Azərbaycan filosofları və mütəfəkkirləri / Z.Məmmədov, – Bakı: Azərnəşr, – 1986. – 63 s.

[17]Aşurbəyli, S. Şirvanşahlar dövləti / S.Aşurbəyli. – Bakı: Əbilov, Zeynalov və oğulları, – 2006. – 712 s.

[18] Aşurbəyli, S. Aşurbəyli, S. Bakı şəhərinin tarixi. Orta əsrlər dövrü / S.Aşurbəyli. – Bakı, Avrasiya press, – 2006. – 416 s.

[19] Ələkbərli, F. Şərqin min bir sirri: [2 cilddə] / F.Ələkbərli. – Bakı: Məlhəm, – c.1. – 2008. – 27 s.

[20] Qasımov, X. Orta əsrlərdə Azərbaycan mədəniyyəti / X.Qasımov. – Bakı: Qrifli, – 2008. – 448 s.

[21]İsmayılov, M. Azərbaycan tarixi: dərslik / M.İsmayılov. – Bakı: Azərbaycan ensiklopediyası, – 1997. – 320 s.

[22] Bakıxanov, A. Gülüstani–İrəm / A.Bakıxanov. – Bakı: Elm, – 1991. – 304 s.

ticarət əlaqələri"[23], Seyidağa Onullahinin "XIII-XVII əsrlərdə Təbriz şəhəri"[24] və başqalarının əsərlərinin adlarını sadalamaq olar ki, hər biri tədqiqat işinin aparılmasında qaynaq olaraq böyük əhəmiyyət kəsb edir. Tədqiqat işinin yazılmasında türkiyəli tarixçılərdən İ.Kefesoğlunun "Selçukun oğulları ve torunları", Güngor Erolun "Tarihte türkler"[25], Faruq Sümərin "Oğuzlar"[26], Z.Kitapçının "Asrın olayı" [27], və başqalarının əsərlərindən müəyyən mövzuların araşdırılmasında faydalanmışıq, bu müəlliflərlə yanaşı tədqiq edilən mövzunun araşdırılmasında Avropa tarixşunaslığı da vacib rol oynayır. Bu baxımdan K.E.Bosvortun "Musulmanskie dinastii"[28], Guo Linin "Early mamluk Syrian historiography al-Yunini`s Dhayl Mir`at al-zaman"[29], Claude Cahenin "The historiography of the Seljuqid period"[30] adlı tədqiqatlarda bu dövr barəsində sanballı məlumatlar vardır. Dissertasiyanın ayrı-ayrı hissələrinin araşdırılmasında İbn al-Kalanisi "History of Damascus"[31] Mirzə Kazımbəyin "Derbendnameh" və başqa müəlliflərə də müraciət edilmişdir. İ.Xəllikanın "Biographical dictionary"[32] adlı dəyərli mənbə əsər haqqında dolğun məlumatları ilə seçilir. Adı çəkilən

---

[23] Gözəlova, Y. Orta əsrlərdə Avrasiyanın ticarət əlaqələri / Y.Gözəlova. – Bakı: Təhsil, – 2011. – 296 s.

[24] Onullahi, S. III–XVII əsrlərdə Təbriz şəhəri / S. Onullahi. – Bakı: Elm, – 1982. – 284 s.

[25] Güngor, E. Tarihte türkler / E.Güngor. – Ankara: Ötüken, – 2011. – 455 s.

[26] Sümer, F. Oğuzlar / F.Sümer, tərc ed. R. Əsgər. – Bakı: Yazıçı, – 1992. – 432 s.

[27] Kitapçı, Z. Asrın olayı: [Elektron resurs] / Selçuk Universiteti Türkiyat araştırmaları dergisi. – oktyabr, 1994. – https://dergipark.org.tr/tr/pub/sutad/issue/26301/277178

[28] Босфорт, Е. Мусульманские династии [Справочник по хронологии и генеалогии] / Е. Босфорт, пер. англ: П.А.Грязневича. – Москва: Наука. – 1983. – 140 с.

[29] Guo, L. Early mamluk Syrian historiography al–Yunini`s Dhayl Mir`at al-zaman: [in 2 vol] / L.Guo. – Chicago, – v.1. – 1997. – 241 p.

[30] Cahen, Cl. The historiography of the Seljuqid period, Hissstoriens of the Middle East / Cl.Cahen, ed.by B.Lewis and P.M. Holt. – London, – 1962.– 78 p.

[31] İbn al–Kalanisi History of Damascus / ed. by H.F.Amedroz. – Leyden: Brill, – 1908. – 156 p.

[32] İbn Khallikan. Biographical dictionary: [in 4 vol] / trans. Slane, M.G. – Paris: Oriental translation fund of İrland, – v.2. – 297 p.

müəlliflərdən başqa bu və digər müəlliflərin rus, ingilis və ərəb dillərində yazılmış və ya həmin dillərə tərcümə edilmiş əsərlərdən başqa, “Azərbaycan etnoqrafiyası”, “Azərbaycan arxeologiyası”, yeddicildlik “Azərbaycan tarixi”nin xüsusilə II cildindən, “Azərbaycan ədəbiyyatı tarixi” və s. çoxcildlik əsərlərdən, DMB. İslam Ensiklopediyası, Rəhbər Ensiklopediyası kimi ensiklopedik kitablardan da qaynaqlanılmış, internet resurslardan da istifadə olunmuşdur.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini “Miratuz-zaman fi təvarixi-l-ə`yan” əsərinin əlyazması və çap nüsxələri təşkil edir. Əsas predmeti isə əsərdə Azərbaycan haqqında verilən məlumatları toplamaq, araşdırmaq, digər mənbələrlə müqayisəli təhlilini aparmaqdır.

**Tədqiqatın məqsəd və vəzifələri**. Dissertasiyanın yazılmasında əsas məqsəd Sibt ibn əl-Cövzi Qızoğlunun bu sanballı əsərini tədqiq etmək və burada Azərbaycan tarixinə aid verilən dəyərli məlumatları vahid bir problem halında araşdırmaq, ümumiləşdirmək və sistemləşdirməkdən ibarətdir.

Bu baxımdan da əsəri tədqiq edərkən qarşımızda duran bəzi vəzifələr vardır:

– Tədqiqat obyekti olan “Miratuz-zaman fi təvarixi-l-ə`yan” əsəri və burada Azərbaycana aid verilən məlumatların araşdırılmasına başlarkən əsərin əlyazma cildinə və çap nüsxələrinə əsasən (VII əsrdən-XIII əsrədək) Azərbaycan tarixinə aid yazılmış bütün materiallara diqqət yetirmək, həmin dövrlərlə bağlı yazılmış məqalələrə və aparılmış araşdırmalara nəzər salmaq;

– Sibt ibn əl-Cövzinin yazıb-yaratdığı dövrün ictimai-siyasi və elmi-mədəni mühitini nəzərdən keçirməklə bu mühitin alimin yaradıcılığına təsirini aydınlaşdırmaq;

– Sibt ibn əl-Cövzinin həyat yolunun ayrı-ayrı mərhələlərini işıqlandırmaq;

– Sibt ibn əl-Cövzinin yaradıcılığını araşdıraraq çap edilmiş əsərləri haqqında məlumat vermək;

– Eyni zamanda “Miratuz-zaman fi təvarixi-l-ə`yan” əsərinin yazılma tarixini dəqiq şəkildə öyrənmək;

– Əsərin əlyazmasının elmi-paleoqrafik xüsusiyyətlərini vermək;

– "Miratuz-zaman fi təvarixi-l-ə`yan" əsərində Azərbaycan tarixinə aid olan hissələri toplayaraq digər mənbələrlə müqayisəli şəkildə mətninin tədqiqini həyata keçirmək.

**Tədqiqat metodları**. Dissertasiyanın yazılmasında tarixilik prinsipi əsas götürülmüş və müqayisəli tarixi metodundan istifadə edilərək, kompleks tədqiqat üsulu tətbiq edilmişdir. Dissertasiyanın nəzəri-metodoloji əsasını ümumi elmi metodlar təşkil edir:

– mövzu üzərində ədəbiyyatın sistemli təhlili;

– ayrı-ayrı faktların sistemli təhlili;

– dissertasiya işi əlyazma və nüsxələri üzərində aparıldığından hər birindən tədqiqat materiallarının yığılaraq tərcümə edilməsi;

– tarixilik prinsipi ilə yanaşaraq müqayisəli təhlil, şərh vasitəsilə ümumi nəticələrin əldə edilməsi;

**Müdafiəyə çıxarılan əsas müddəalar**.

– Mənbədə "Azərbaycan" adı olduğu kimi yazılır;

– "Ərməniyyə" və "İrminiyyə" olaraq mənbədə adı çəkilən ərazi eyni yerdir və müasir Ermənistan ərazisi deyil ;

– Ərəb xilafəti ilə Xəzər Xaqanlığı arasında olan ilk döyüş Azərbaycan torpaqlarında olmuşdur;

– Orta əsrlərdə, xüsusilə səlcuqlar dövründə bir sıra şəhərlərimizin inkişaf səviyyəsi yüksək idi və öz xüsusiyyətlərinə görə seçilirdi;

– Mənbədə Təbriz şəhərinin sosial-iqtisadi cəhətdən vəziyyəti barəsində verdiyi məlumatlar digər mənbələrə nisbətən çox fərqlidir;

– 1063-cü ildə Səlcuqlara qarşı baş verən Xoy üsyanı haqqında ətraflı məlumat verilmişdir;

– Səlcuq yürüşləri nəticəsində Azərbaycan ərazisində yeni türk tayfalarının məskunlaşmasına səbəb olmuşdu xüsusilə Nəvakiyyə adlı tayfalar haqqında məlumatlar vardır.

**Tədqiqatın elmi yeniliyi**. Sibt ibn əl-Cövzi Qızoğlu adı Azərbaycanda demək olar ki, tanınmır. Onun müxtəlif mövzularda yazdığı əsərləri xüsusilə də bir din xadimi kimi qələmə aldığı əsərləri istər türk, istərsə də avropalı tarixçilər tərəfindən tədqiq

edilmişdir. Lakin tarixi mövzuda yazdığı yeganə əsəri olan "Miratuz-zaman" isə çox az tədqiq edilmişdir. "Miratuz-zaman" əsərinin əlyazmasının (1 cild) və çap nüsxələrinin ərəb dilindən edilən tərcümələri əsasında, hər bir cildin içərisindən Azərbaycan tarixinə aid verilən məlumatların toplanaraq tərcümə tədqiq edilməsi onun ilkin elmi yenilyini təşkil edir. Beləliklə:

– İbn əl-Cövzi Qızoğlunun "Miratuz-zaman" əsərinin AMEA-nın M. Füzuli adına Əlyazmalar institutunda saxlanılan I cildi;

– Türkiyədə Topqapı muzeyində saxlanılan əlyazma nüsxəsi;

– Beyrutda-Livanda nəşr edilən 23 cildi əsasında Azərbaycan və onun tarixinə aid informasiyalar Azərbaycan dilində ilk dəfə bu dissertasiyada elmi ictimaiyyətə təqdim edilmişdir;

– Əsərin mövzusu, elmi əhəmiyyəti öyrənilmiş və onun yazılmasında müəllifin istifadə etdiyi qaynaqlara əsaslanaraq əsərin elmi əhəmiyyəti müəyyən edilmişdir;

– Əsərdə Azərbaycan tarixinə aid yazılan məlumatlar seçilərək orta əsr və müasir dövr mənbələri ilə müqayisə edilərək tədqiq edilmişdir;

– Əsərin Azərbaycan tarixinin öyrənilməsində heç vaxt tədqiqat mövzusu olmadığını nəzərə alsaq, salnamənin orta əsr tariximizin daha geniş şəkildə tədqiq ediməsində qiymətli bir mənbə olduğu müəyyənləşdirilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işi ilkin tarixi mənbəyə erkən orta əsrlər tarixinin öyrənilməsi baxımından əhəmiyyətlidir. Dissertasiyanın ədəbiyyatından, materiallarından və nəticələrindən Azərbaycan tarixinə aid tədqiqatların icra edilməsində, dərs və kitab vəsaitlərinin, mühazirə kurslarının hazırlanmasında istifadə edilə bilər.

Əsər üzərində işləyərkən təkcə problemin öyrənilməsi və faktiki materialların toplanması ilə kifayətlənilməmiş, eyni zamanda həmin faktları hərtərəfli və dərindən təhlil etməyə, onların arasındakı əlaqələri və ziddiyyətləri aşkara çıxarılmışdır.

**Aprobasiyası və tətbiqi**. Dissertasiyanın əsas tərkibi və müddəaları müəllifin dərc edilmiş məqalələrində, ölkə və beynəlxalq miqyaslı elmi konfranslarda, öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun "Tərcümə və informasiya" şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiyanın ümumi həcmi 264.585 şərti işarədir. Dissertasiya giriş – 18296 şərti işarə, birinci fəsil - 26778 şərti işarə, ikinci fəsil - 98.688 şərti işarə, üçüncü fəsil – 87.318 şərti işarə, nəticə 12.122 şərti işarə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** işin ümumi səciyyəsi, mövzunun aktuallığı, problemin xronoloji çərçivəsi, tədqiqatın məqsəd və vəzifələri, problemin öyrənilmə səviyyəsi, dissertasiyanın mənbə bazası, tədqiqatın metodoloji əsası, dissertasiyanın elmi yeniliyi və praktik əhəmiyyəti haqqında məlumat verilmişdir.

Dissertasiyanın birinci fəsli "**İbn əl-Cövzi Qızoğlunun, həyatı və elmi fəaliyyəti"** adlanır, dörd paraqrafdan ibarətdir. "**Həyatı, onu yetişdirən mühit və yaradıcılığı"** adlanan birinci paraqrafda qeyd edilir ki, o, 582/1186-cı ildə Bağdad şəhərində anadan olmuşdur. Atası əsli türk olan Hüsaməddin Qızoğlu idi. Babası Cəmalüddin Əbu-l Fərəc b. əl-Cövzi də dövrünün məşhur şəxslərindən biri olmuşdur. Onun "Zadu-l məsir fi  ilmut-təfsir" adı ilə məşhur olan təfsiri ,"Tarixi-kəbir" adlı əsəri və 4 clddən ibarət hədisləri topladığı daha bir kitabı da vardır. Sibt hələ kiçik yaşlarından (təxminən 3 yaşında) atasını itirdiyi üçün onu babası böyütmüşdür. Tarix və bir çox islami elmləri də o, babasından öyrənmişdir. Elmi tərbiyəni ilk dəfə babasından alan Sibt, dövrünün ən məşhur alimlərindən Bağdadda və Mosulda təhsil almışdır. O, 1257-ci ildə özünə ikinci vətən olaraq seçdiyi Dəməşqdə Qasiyun dağının ətəyində yerləşən evində vəfat etmiş, orada da dəfn edilmişdir. Cənazəsində böyük xalq izdihamıyla yanaşı, Əyyubi hökmdarlarından əl-Məlikun-Nasir

Salahuddin Yusifin də iştirak etməsi, onun həm xalq, həm də hökumət yanında necə böyük bir hörmət qazandığının dəlilidir.[33]

İbn əl-Cövzi həyatının bir hissəsini Bağdadda, qalan hissəsini isə Dəməşqdə keçirtmişdir. Təxminən 18 yaşına qədər doğulduğu Bağdad şəhərində babasının himayəsində yaşamışdır. Həmin dövrdə Abbasilər dövlətinin hakimiyyəti altında olan Bağdad şəhəri 1055-ci ildə Səlcuq hökmdarı Sultan Toğrul tərəfindən tutuldu. 1152-ci ilə qədər Səlcuqların buradakı hakimiyyəti davam etmiş, o, həmin dövrlərdə Bağdadda yaşamışdır.[34].

Babasının ölümündən sonra 1200-ci ildə, təxminən 18-20 yaşı olanda, Bağdadı tərk edən Sibt Dəməşqə köçmüşdür. Həmin dövrlərdə Dəməşq Əyyubilərin hakimiyyəti altında idi və dövrün irəlidə gedən şəhərlərindən biri idi. Elm və təlimə yüksək önəm verən Əyyubi sultanları müsəlman alimləri tərəfindən rəğbət qazanmışdılar. Bu dövrdə din, siyasət, fəlsəfə, tarix yönündən püxtələşən və əsərləri ilə dövrümüzdə də tanınan dəyərli alimlər yetişmişdir. Alimlərin yetişməsində, elm və irfanın daha geniş ərazilərə yayılmasında mədrəsələrin böyük rolu vardı. [35] Bu mədrəsələrdən Səlahiyyə, Asrıniyyə, İkbiliyyə, Şibliyyə və b. adlarını çəkmək olar. Dövrün dilçi alimlərindən olan Tacəddin Əbu Yumn əl-Kindi (613/1217) və İmadəddin əl-İsfahaninin (597/1201) Sibt ibn əl-Cövziyə dərs keçmişlər.[36]

Bu paraqrafda həmçinin Sibt ibn əl-Cövzinin dövrümüzə qədər gəlib çatan əsərlərinin adları çəkilir və həmin əsərlər haqqında qısa məlumatlar verilir.

“**Miratuz-zaman” haqqında ümumi məlumat”** adlanan ikinci paraqraf əsərin yazılma tarixi, əlyazma nüsxələrindən bəhs edir. “Miratuz-zaman fi təvarixi-l-ə`yan” (“Görkəmli adamların

---

[33]Sibt İbn el–Cövzi Mir`atu`z zaman fi tarixil–a`yanda Selçuklular / değerlendirme prof.dr. A. Sevim. – Ankara: Türk tarih kurumu yayınları, – 2011. – 15 s.

[34] Marr, A.P. Baghdad: [Electronic resource] / Encyclopædia Britannica Online, – 9 sentyabr, https://www.britannica.com/place/Baghdad

[35] Bozkurt, N. Medrese // İslam ansiklopedisi. – İstanbul: Türkiye Diyanet Vakfı yayınları, – 2007. c.28, – s. 324.

[36] Basuğuy, B. Selahaddin–i Eyyubi Devrinde İlmî Faaliyetler / B.Basuğuy. – İstanbul: – 2006. – 221 s.

tarixində zamanın güzgüsü”) əsərinin əlyazması orta əsr şərq tarixini öyrənmək baxımından ən qiymətli mənbələrdən biridir.

Əsərin yazılmasında müəllif bu prinsiplərə əsaslanmışdır:

I- tarixi bilmək və ərəblərin tarix haqqında məlumatları;

II-tarixi mənbələrin nəzərində tarix;

III- dünyanın yaradılışı barəsində;

IV-müəllifin əsəri yazarkən hansı ardıcıllığı və nizamlı nitqdən istifdə etməsi;

V-Fəsillər haqqında ümumi məlumat.

Salnamə haqqında məlumat verən tarixçilər onun, cildlərinə dair müxtəlif məlumatlar veriblər. Bunlardan İbn Xəllikan (1211-1282) Dəməşqdə Sibt ibn Cövzinin 40 cilddən təşkil edilmiş və hər cildində də müəllifin imzası olan “Miratuz-zaman fi tərixil-ə`yan” adlı əsərini gördüyünü yazmışdır. Qədim dövr tarixçilərdən əl-Yunini onun 37 cild, İbn əl-Kəsir isə “Miratuz-zaman”ın 20 cilddən ibarət çox yaxşı bir tarixi əsər olduğunu yazmışdır.[37] Ancaq çox təəssüf ki, əsərin bir çox cildi itmiş, günümüzədək yalnız bəzi cildləri gəlib çatmışdır. “Miratuz-zaman” əsərinin I cildinin əlyazması AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda D-23 şifrəsi altında qorunmaqdadır.

I fəslin üçüncü paraqrafı **“Əsərin yazılmasında istifadə edilən mənbələr**” adlanır. Əsərdə məlumatlar adətən başqa müəlliflərin əsərlərindən toplanmış materiallarla sübut edilir Bu baxımdan Sibt, əsərin özündən əvvəlki dövrləri əhatə edən qismlərini yazmaq üçün həmin dövrlərdə yazılmış bir çox əsərlərdən qaynaq olaraq istifadə etmişdir. Bunlardan müəllifin ən çox qaynaqlandığı əsər, Muhamməd b. Hilal əbu-l-Həsən Qarsun-nimə əs-Sabinin “Uyunut-təvarix” adlı kitabı olmuşdur. Qarsun-nimə bu əsərini atası Hilal b. Muhassin əs-Sabinin h.360-448-ci illəri əhatə edən tarixi əsərinə zeyl olaraq qələmə almış və onu h.479(1086/1087)-cu ilə qədər davam etdirmişdir. XI əsrdə Bağdadda qələmə alındığı bilinən “Uyunut-təvarix”i Sibt Dəməşqə gətirərək istifadə etmişdir, lakin əsərin sonrakı taleyi barəsində qaynaqlarda heç bir məlumat

---

37 شمس ا شمس الدين ابي المظفر يوسف قزاوغلي بن عبد الله سبط ابن الجوزي. مراة الزمان في تاريخ الاعيان /دراسة و تجقيق جنان جليل محمد الهموندي.- بغداد: الدار الوطنية - ١٩٩٠-٤٦٧ ص

yoxdur.[38] Lakin bütün bunlara baxmayaraq “Uyunut-təvarix” əsəri Səlcuq İmperiyası tarixini öyrənmək baxımından çox mühüm əhəmiyyət kəsb edir. Çünki onun müəllifi Qarsu`n-ni`mə özü həmin dövrdə yaşamış və hadisələri şəxsən izləmişdir, xüsusulə də Toğrul bəy, Alp Arslan və Məlik şah dövrüylə əlaqəli hadisələr haqqında dolğun məlumatlar verməkdədir.[39]

Sibtin bu böyük əsəri, sonralar Kutubiddin Musa b.Muhamməd əl-Yununi əl-Bəalbəki (ölm.1326) tərəfindən qısaldılaraq yenidən qələmə alınmışdır. Yununi həmçinin h.654-cü il hadisələri ilə sona çatan “Miratuz-zaman”a bir zeyl də yazmış və onu h.713-cü ilə qədər davam etdirmişdir. [40]

“Miratuz-zaman”ın istər Türkiyədə, istərsə də Avropa və Asiya ölkələrinə məxsus kitabxanalarda müxtəlif nüsxələri mövcuddur. Bunlardan: Topqapı sarayı, III Əhməd Kitabxanası nüsxəsi, Paris Milli Kitabxanası nüsxəsi, Türk-İslam Əsərləri muzeyi nüsxəsi Türk-İslam Əsərləri muzeyi nüsxəsi haqqında bu paraqrafda məlumatlar öz əksini tapmışdır.

**“Əsərdən indiyə qədər nəşr edilən hissələr və əlyazma nüsxələri”** adlanan I fəslin dördüncü paraqrafında əsərin indiyə qədər çap edilən hissələri ilə yanaşı, saxlanıldığı kitabxanalar və nüsxələri haqqında da ətraflı məlumat verilmişdir.

**“Miratuz-zaman” əsərinə əsasən Səlcuqların Azərbaycana gəlişinə qədər (XI əsrə qədər) burada baş verən hadisələr”** adlanan ikinci fəsil üç paraqrafdan ibarətdir. **“Azərbaycanda siyasi vəziyyət”** adlanan II fəslin birinci paraqrafında “Miratuz-zaman”da erkən futuhat dövrünə aid məlumatlar toplanmışdır. Müəllif VII əsrdən etibarən xilafətin Azərbaycana yürüşləri (v cild) və Nəhavənd döyüşü haqqında yazır ki, h. 21/641-642 ci ildə Ömər Osman ibn əbi

---

[38] Sadıqova, K. F. Sibt ibn əl-Cövzi və onun “Mir`atuz-zaman fi tərixil-ə`yan” əsəri // Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyəti tarixi problemləri XII Respublika elmi konfransının materialları, – Bakı: – 2011, – s. 345-348.

[39] سبط ابن الجوزي يوسف قزاوعلي مراة الزمان في تاريخ الاعيان/ تحقيق: احسان عباس.- بيروت: دار الشروق - ١٩٧٥.-٤٧٦ ص.

[40] Guo, L. Early mamluk Syrian historiography al–Yunini`s Dhayl Mir`at al-zaman: [in 2 vol] / L.Guo. – Chicago, – v.1. – 1997. – 241 p.

əl-As əs-Səqafi ordu ilə Ərminiyyəyə göndərildi və Səfvan ibn əl-Muattal əs-Suləmi orada şəhid oldu.

Deyilir ki, Nəhavənd döyüşü həqiqətən də bu ildə olmuşdur (h.21) və biz bunu xatırlayırıq. Burada Ömər b. Yasiri Kufəyə əmir, İbn Məsudu müəllim və vəzir olaraq həm də Beytul-mala təyin etdim. Çünki onlar peyğəmbərin (s.a.s) nəcabətli səhabələrindəndirlər, Bədr əhlidirlər, onlara qulaq asın və itaət edin.[41]

Həmçinin bu cilddə Həmədanın fəthi (s.323), Ərməniyyənin tutulması (s.367), Biləcərinin fəthi (s.387), xilafətin Azərbaycana təyin etdiyi valilərdən, VII cild Ərdəbilin tutulması hadisəsi (s. 5) [42] XI cild də Xilafətlə Xəzər Xaqanlığı arasında baş verən münaqişələr[43], XIII və XIV cild Babəkin başçılığı altında Xürrəmilər üsyanı və nəticələrindən bəhs edilir.[44]

Daha sonra IX əsrdən etibarən Azərbaycanda hakim olan feodal sülalələrdən bəzi məlumatlar çatdırılır və baş verən siyasi vəziyyətdən bəhs edilir.

İkinci paraqraf **"Azərbaycanda sosial-iqtisadi vəziyyət"** adlanır. Bu paraqraf erkən orta əsrlərdə Azərbaycanda kənd təsərrüfatı, şəhərlər, sənətkarlıq və ticarətdən bəhs edilir. Çindən başlanan qədim "İpək yolu"ndan tutmuş Şərq ölkələrindən müxtəlif səmtlərə baş alıb gedən tranzit ticarət yollarının çoxu Azərbaycandan gəlib keçirdi. Azərbaycanın paytaxt əhəmiyyətli şəhərləri, habelə iri sənət və ticarət mərkəzləri tarix boyu beynəlxalq tranzit ticarəti yollarının başlıca dayanacaq yerinə, alışveriş məntəqələrinə

---

41 سبط ابن الجوزي يوسف قزاوغلي مراة الزمان في تواريخ الاعيان:[في ٣٢ مجلدات]/ بيروت: الرسالة العالمية، -ج.٥ - ٢٠١٣ . -٥٣٤ ص

42 سبط ابن الجوزي يوسف قزاوغلي مراة الزمان في تواريخ الاعيان: [في ٣٢ مجلدات]/ بيروت: الرسالة العالمية، - ج.٧- ٢٠١٣ .- ٩١٥ ص

43 سبط ابن الجوزي يوسف قزاوغلي مراة الزمان في تواريخ الاعيان: [في ٢٣ مجلدات]/ بيروت: الرسالة العالمية ,-ج.١١- ٢٠١٣. - ٤٩٦ ص

44 سبط ابن الجوزي يوسف قزاوغلي مراة الزمان في تواريخ الاعيان: [في٢٣ مجلدات]/ بيروت: الرسالة العالمية، - ج.١٣- ٢٠١٣ -٤٤٨ ص

سبط ابن الجوزي يوسف قزاوغلي. مراة الزمان في تواريخ الاعيان:[في ٢٣مجلدات]/ بيروت: الرسالة العالمية، - ج.١٤- ٢٠١٣ . -٤٧٧ ص

çevrilmişdilər. [45] Zəngin bazarları və yerli sənətkarların istehsal etdikləri müxtəlif çeşidli məhsulları olan Azərbaycan və Arran şəhərləri ticarət əməliyyatlarında iştirak edərək, Xilafətin Avropa və Asiya ölkələri ilə ticarət əlaqələrinin artmasına səbəb olurdular. [46]

"**Azərbaycanda mədəni vəziyyət**" adlanan üçüncü paraqrafda həmin dövrlərdə Azərbaycanda yaranan və inkişaf edən mədəniyyətin bir çox sahələrindən, xüsusilə memarlıq, metalişləmə və başqaları ilə yanaşı elmin inkişafından da bəhs edilir. Qeyd edilir ki, IX yüzilliyin ortalarından başlayaraq Azərbaycan mədəniyyətinin tərəqqisi daha da sürətləndi. Bunun üçün başlıca taraixi zəmin yaranmışdı. Ərəb xilafətinin süqutu nəticəsində Azərbaycanın qədim dövlət ənənələrinin dirçəlməsi-Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər dövlətlərinin meydana gəlməsi, xalqın yadellilərə qarşı inadlı mübarizəsi nəticəsində əldə olunan siyasi müstəqillik maddi və mənəvi mədəniyyətin oyanışına daha əlverişli şərait yaratdı. [47] Getdikcə ölkənin siyasi gücünün də artması, ticarətin inkişafı, xarici ölkələrlə mübadilə və əlaqələr, Azərbaycan şəhərlərinin bir çoxunun tranzit şəhər olması burada elm və mədəniyyətin irəliləməsi üçün geniş imkanlar açırdı.[48]

Dissertasiya işinin üçüncü fəsli **"Miratuz-zaman" əsərinə əsasən Azərbaycan Səlcuqların hakimiyyəti altında"** adlanır. Bu fəsil artıq Səlcuqların Azərbaycana gəlişindən sonrakı prosesləri əhatə edir. "Miratuz-zaman fi təvarixi-l ə'yan" əsərinə əsasən Səlcuqların Azərbaycana gəlişindən sonrakı dövrlərdə Azərbaycan tarixinin öyrənilməsindən bəhs edən bu fəsildə İbn əl-Cövzinin "Miratuz-zaman" əsərinin əlyazmasının çap nüsxələrinə əsasən Səlcuq dövrü Azərbaycanda baş verən hadisələr araşdırılaraq tarximizə dair bir çox qaynaqlarda olmayan faktlar üzə çıxarılmış və

---

[45] Sadıqova, K.F. Erkən orta əsrlərdə Azərbaycanda elmin inkişafı //– Bakı: Elmi Əsərlər, AMEA Tarix İnstitutu, – 2012. № 41-43, – s.16;

[46] Azərbaycan tarixi: [7 cilddə] / red. N.Vəlixanlı. – Bakı: Elm, – c.2. – 2007. – 608 s.

[47] Mahmudov, Y. Azərbaycan tarixi. İntibah dövrü: IX əsrin ikinci yarısı–XIII əsrin əvvəlləri / Y.Mahmudov. – Bakı: Altay dünyası, – 1996. – 84 s.

[48] Sadıqova, K.F. IX-XI əsrlərdə Azərbaycanda sənətkarlıq və ticarət // – Bakı: Gənc alimlərin əsərləri, – 2013. № 8, – s. 314-320.

tədqiq edilmişdir. Bu fəsildə "Miratuz-zaman"ın həm 1907-ci ildə Çikaqoda edilən nəşri, həm Türkiyə Topqapı saray nüsxəsi, həm də 1990-cı ildə Beyrutda Cənan Cəlil Məhəmməd Həməvundi tərəfindən edilən nəşrlərinin hər birindən istifadə olunmuşdur. Salnamənin 19, 20, 21, və 22-ci cildləri bu fəsildə tədqiqata cəlb edilmişdir.

III fəsil üç paraqrafdan ibarətdir. Birinci paraqraf **"Səlcuq imperiyası və Sultan Toğrul bəy dövrü"** adlanır. Burada Səlcuq İmperiyası haqqında qısa məlumatlar verilir. XI-XII əsrlər Azərbaycanın etnik tarixində Orta Asiyadan səlcuq-oğuzların Ön Asiyaya və Cənubi Qafqaza gəlmələr ilə əlaqədar olaraq yeni mərhələ ilə səciyyələnir. Artıq XI əsrdən etbarən Azərbaycan Orta Asiyadan Aralıq dənizi sahillərinə və Dərbənd keçidindən İran körfəzinə qədər geniş əraziləri əhatə edən Böyük Səlcuq imperatorluğunun tərkibinə daxil edildi.[49]

Səlcuqlar ümumdünya tarixinin gedişinə fəal təsir göstərmiş, Yaxın və Orta Şərqin etnik, hərbi-siyasi və ictimai-iqtisadi tarixində dərin iz buraxmışdır. Bu izlər Azərbaycanda da özünü göstərmiş, Azərbaycan ictimai-siyasi, fəlsəfi və mədəni həyatında da mühüm rol oynamışdır. Səlcuqlulardan sonra Azərbaycanda yenidən min illik Türk səltənəti bərqərar olmuş, bu min illik dönəmdə Azərbaycanda Atabəylər, Şirvanşahlar, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Əfşarlar və Qacarlar kimi yerli dövlətlər, Xarəzmşahlar, Elxanilər və Teymurilər kimi Türk dövlətləri tarixə öz möhürünü vurmuş, Azərbaycanda ədəbi-bədii, fəlsəfi dil türk dili olmasa da regionda ümumi ünsiyyət vasitəsi türk dili olmuş, Azərbaycan dövlətçilik ənənəsi qorunub saxlanmışdır.[50]

Səlcuq türklərinin gəlişinə qədər Azərbaycanda türk tayfalarının olması tarixi həqiqətdir. Beləki, hələ səlcuq türklərinin axınlarından və Böyük Səlcuq imperiyasının meydana gəlməsindən

---

[49] Sadıqov, K.F. "Mir`atuz-zaman fi tərixil-ə`yan" əsəri Azərbaycan tarixinin öyrənilməsində mənbə kimi // – Bakı: Tarix və onun problemləri jurnalı, – 2014. № 2. – s. 343.

[50] Qasımlı, A.M. Türklər (Tarixi oçerklər) / A.M.Qasımlı. – Bakı: Türk dünyası, – 2012. – 522 s.

çox əvvəl Azərbaycan qədim türk tayfalarının, o cümlədən oğuz türklərinin yaşadığı ümumi əraziyə daxil idi. Səlcuq türklərinin axınları ərəfəsində, artıq vahid Azərbaycan türk xalqının yaranması prosesi, demək olar ki, başa çatmaqda idi.[51] C.E.Bosvort Səlcuqlar haqqında məlumat verərkən belə yazır: "*Səlcuqlar, Oğuz Türklərinin Kınık boyuna mənsub olub tarixdə doqquz qəbilədən və ya Doqquz Oğuz adını daşıyan bir topluluq olaraq ortaya çıxıblar. X əsrdə islam dinini qəbul ediblər*". [52]

Bu paraqrafda isə Səlcuq İmperiyasının birinci hökmdarı olan Sultan Toğrul bəy dövründən bəhs edilmiş və "Miratuz-zaman" əsərinə əsasən onun hakimiyyətdə olduğu dövr, həmin dövrdə Azərbaycanda baş verən hadisələr araşdırılmışdır. I Səlcuq sultanı olan Toğrul bəyin hakimiyyətə gəlməsi Səlcuq dövlətində I mərhələ başlayır. Naxçıvan və onun ətrafındakı Azərbaycan torpaqları Səlcuqların nəzarəti altına keçdi. 1054-cü ildə isə Sultan Toğrulun hərbi qüvvələri Təbrizə yaxınlaşdı. [53] Rəvvadi hökmdarı Vəhsudan Səlcuq sultanına tabe oldu və dövləti vassal asılılığına saldı. Şəddadi hökmdarı Əbüləsuvar Şavur da Səlcuqlara tabe oldu. Sultan I Toğrul yeni yaratdığı dövləti Bağdad xəlifəsinin mənəvi nüfuzu ilə gücləndirmək məqsədilə 1055-ci ildə Bağdadı tutdu. Abbasilər səlcuq türklərindən asılı vəziyyətə düşərək, sultan I Toğrulu bütün Şərqin və Qərbin hökmdarı kimi tanımağa məcbur oldular.

Oğuzlar ilk dəfə 1018-1021-ci illər arasında Azərbaycana yürüşə başlamışlar. [54] Həmin dövrlərdə Azərbaycanın cənub vilayətlərinə, oradan isə Arrana dəfələrlə basqınlar törədən oğuzların bu yerlərə yürüşləri yalnız cənubdan-İran tərəfdən deyil, tarixçi Rəşidəddinin yazdığı "Oğuznamə" əsərində göstərildiyi kimi,

---

[51] Qeybullayev, Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən / Q. Qeybullayeva. – Bakı: Azərnəşr, – 1994. – 248 s.

[52] Босфорт, Е. Мусульманские династии [Справочник по хронологии и генеалогии] / Е. Босфорт, пер. англ: П.А.Грязневича. – Москва: Наука. – 1983. – с.162.

[53] سبط ابن الجوزي يوسف قزاوغلي. مراة الزمان في تواريخ الاعيان: [في ٢٣ مجلدات]- بيروت: الرسالة العالمية،- ج.١٧- ٢٠١٣ .-٥٣٦ ص.

[54] Azərbaycan tarixi: Ən qədim dövrlərdən XX əsrin əvvəllərinə qədər / baş red. İ. Əliyev. – Bakı: Elm, – 1993. – 284 s.

şimaldan - Dərbənd keçidi vasitəsilə də baş verirdi.[55] Oğuzların 1021-ci ildə baş vermiş ilk məlum yürüşü haqqında erməni tarixçisi Vardan, 1029-cu ildə Marağa və Urmiyaya olan yürüşləri barədə isə İbn əl-Əsir məlumat vermişlər. İbn əl-Cövzi də bəzi məlumatları çatdırır.

Oğuzların Azərbaycandakı ilk fəthindən Toğrul Bəyin bu ölkəyə gəlməsinə qədər bölgədə diqqəti çəkən hər hansı bir oğuz fəaliyyəti olmamışdır.[56] Cövzi Sultan Toğrul bəyin Azərbaycana səfəri vaxtı ölkədə olan vəziyyəti şərh edərkən bildirir ki, hicri təqvimi ilə 446-cı ildə(1054-1055) Syltan Toğrul bəy Azərbaycana köçərək Təbrizə gəldi. Bu məlumatları verir: "*Təbriz şəhərinin valisi Əbu Nəsr Məhəmməd b. Vəhsudan sultanın qapısının önündə hazır vəziyyətdə dayandı  və ondan müəyyən miqdarda pul verməsi qərarlaşdırıldı, o da bu pulun böyük bir qismini verdi  və qalan hissəsi üçün də oğlunu girov olaraq qoydu".*[57]

Sibtin Təbriz şəhərinin sosial-iqtisadi cəhətdən vəziyyəti barəsində verdiyi məlumatlar digər mənbələrə nisbətən çox fərqlidir. Sibt ibn əl Cövzi əsərində yazdığına görə, Toğrul bəyin Təbrizi tutmaq üçün oraya  gəldiyi zaman Təbriz olduqca pis vəziyyətdə idi, şəhər dağılmışdı və əhalisi pis vəziyyətdə yaşayırdı. Bunun səbəbi əsasən, 1042-ci ilin oktyabr ayında baş vermiş zəlzələ idi. [58]

İkinci paraqraf "**Sultan Alp Arslan dövrü**" adlanır. Bu fəsildə də həmçinin birinci paraqrafda olduğu kimi "Miratuz-zaman" əsərində Azərbaycan tarixi tədqiq edilmiş və  Sultan Alp Arslanın hakimiyyətdə olduğu dövrlərdə Azərbaycanda baş verən hadisələr digər tarixi qaynaqlarla müqayisəli şəkildə geniş araşdırmaları verilmişdir.

---

[55] Rəşidəddin,  F.  Oğuznamə / F.Rəşidəddin. – Bakı: Şərq–Qərb, – 2006. – 216 s.
[56] Nəcəfov, Ə.N. Səlcuqlu dövlətləri və Atabəyləri tarixi (Oğuzların ortaya çıxmasından  XIV əsrə qədər) / Ə.N.Nəcəfov. – Bakı: Qanun, – 2010. – 55 s.
[57] İbn el–Cövzi Mir`atu`z zaman fi tarixil–a`yanda Selçuklular / değerlendirme prof.dr. A. Sevim. – Ankara: Türk tarih kurumu yayınları, – 2011. – s. 108-109.
[58] شمس الدين ابن المظفر يوسف بن قزاوغلى سبط ابن الجوزي. مراة الزمان في تواريخ الاعيان.ـ انقرة: مطبعة لجمعية التاريخية التركية، ـ ١٩٧٨ـ ٢٧٥ ص.

Alp Arslanın hakimiyyətə gəlməsi ilə artıq Azərbaycanın müxtəlif bölgələrinin adı Sibtin əsərində daha geniş hallanmağa başlayır. Belə ki, 1066-cı ildə Sirvanşahlar dövlətinin vassal asılılığına salınması ilə Azərbaycan bütünlüklə Böyük Səlcuq imperatorluğuna tabe edildi. 1071-ci ildə Səlcuq dövləti tarixinin əsas döyüşlərindən olan Malazgird döyüşündə Bizans imperiyasını darmadağın etdi və Kiçik Asiyanı ələ keçirdi. Bu döyüşdən sonra artıq Azərbaycan Səlcuqlara qarşı apardığı mübarizəni dayandırdı. Nəticədə əsrin 70-80-cı illərində Azərbaycanda Səlcuqların hökmranlığı bərqərar oldu. Bu səlcuqların III böyük hökmdarı Məlikşahın hakimiyyəti illərində baş verdi. III mərhələni Sultan Məlikşahın hakimyyəti illəri təşkil edir.

Dissertasiya işinin III fəslinin üçüncü paraqrafı **"Sultan Məlikşah dövrü"** adlanır. Bu paraqrafda Sultan Məlikşahın hakimiyyətdə olduğu dövr və bu dövrdə Azərbaycanda baş verən hadisələr "Miratuz-zaman" əsərinə əsasən tədqiq edilmişdir. Məlikşahın dövründə oğuzlar artıq yalnız qənimət və əsirlərlə kifayətlənmir, mühüm strateji və siyasi məntəqələri ələ keçirməyə çalışırdılar. Qərbdə Aralıq dənizi sərhədlərindən başlayaraq Şərqdə Çin sərhəddinə qədər, cənubda Yəmən, şərqdə Xarəzm və Abxaz ölkəsi bütünlükdə Məlikşahın hakimiyyəti altına keçdi. Məmləkətdə elm, ticarət, siyasət inkişaf etdi. Məlikşah dövrü həm müsəlman, həm də qeyri müsəlman müəlliflər tərəfindən bir ədalətli idarə dövrü kimi qiymətləndirilir. 1092-ci ildə Sultan Məlikşahın ölümü ilə bu dövr sona çatdı.

Beləliklə, Azərbaycanın Böyük Səlcuq imperiyasının tərkibinə daxil olmasının nəticəsində İslam dini Azərbaycanda daha da möhkəmləndi, Azərbaycan  xalqının təşəkkül prosesi sürətləndi və müxtəlif tarixi dövrlərdə soykökündə, başlıca olaraq, iskit (skit, skif), sak, massaget, hun, bulqar, xəzər, barsil, peçeneq, suvar, habelə başqa türk və qeyri-türk etnoslarının iştirak etdiyi və oğuz türklərinin (qaraqoyunlular, ağqoyunlular, səlcuqlar və b.) həlledici rol oynadığı Azərbaycan xalqının təşəkkülü prosesi başa çatdı; Azərbaycan dili bütün Cənubi Qafqazda, o cümlədən Azərbaycan ərazisində başlıca ünsiyyət vasitəsi oldu. Sadə və anlaşıqlı Azərbaycan dili məhdud dairədə fəaliyyət göstərən dilləri, həmçinin ərəb və fars dillərini sıxışdıraraq bütün ölkə miqyasında canlı ünsiyyət vasitəsinə çevrildi.

Dissertasiyanın **“Nəticə”** hissəsində tədqiqat zamanı əldə etdiyimiz elmi və nəzəri məlumatlar sistemləşdirilərək verilmişdir. Beləliklə, tədqiq etdiyimiz "İbn əl–Cövzi Qızoğlunun “Miratüz-zaman” əsərində Azərbaycan tarixi məsələləri" adlı tədqiqat işini yekunlaşdıraraq bu nəticəyə gələ bilərik ki, əsər erkən futuhat dövrünün tədqiq edilməsindən etibarən Səlcuq imperiyasının, xüsusilə də Sultan Toğrul, Alp Arslan və Məlikşahın hakimiyyəti illərində Azərbaycan tarixinin öyrənilməsi yönündə, mühüm mənbələrdən biridir. Əsərdə bəzi Azərbaycanlı alim və filosofların adları çəkilərək onlar haqqında məlumatların verilməsi, orta əsr şəhərlərimizin adlarının qeyd edilərək baş verən tarixi hadisələrin ardıcıl göstərilməsi və məlumatların dolğun şəkildə çatdırılması kimi xüsusiyyətləri onun qaynaq xarakterli mənbə olduğuna əsas verir. Salnamə tipində yazılmış Sibt İbn əl-Cövzinin yeganə tarixi əsəri, tariximizin araşdırılmasında demək olar ki, tədqiqat mövusu, qaynaq xarakteri olmayıb, bu baxımdan qeyd edilməlidir ki, əsər ərəbdilli mənbələrdən biri kimi dəyərlidir. “Miratuz–zaman”da Azərbaycan tarixinə aid verilən məlumatlardan:

1. Əsərin Azərbaycan tarixinin öyrənilməsində tədqiqat mövzusu olmadığını nəzərə alsaq, orta əsr tariximizin daha geniş şəkildə tədqiq ediməsində qiymətli bir mənbə olduğu müəyyənləşdirildi;

2. Tədqiat zamanı dəqiqləşdirdik ki, “Miratuz-zaman” əsəri xilafət dövrü Azərbaycan tarixinin araşdırılmasında qaynaq xarakteri daşıyır;

3. “Miraztuz-zaman” əsəri erkən futuhat dövründə Azərbaycanda baş verən hadisələrin təhlili yeni dəlilləri nümayiş etdirir;

4. Xilafətə qarşı baş qaldırmış və uzun müddət davam edən Xürrəmilər hərəkatının tarixi gedişatının öyrənilməsində örnək nümunələri ilə seçilir;

5. Tədqiqat zamanı bu nəticəyə gəlmək olar ki, Səlcuqlar Azərbaycan dilinin formalaşmasında və ədəbi mühitdə də istifadə edilməsinə sadəcə olaraq zəmin yaratmışlar, Azərbaycan dilində Oğuz dilləri üçün səciyyəvi xüsusiyyətləri artırmışlar;

6. Azərbaycanın səlcuqların buraya yürüşündən əvvəl də, sonra da Cənubi Qafqazda və Ön Asiyada aparıcı rol oynadığını bir daha dəqiqləşdirildi;

7. Orta əsrlərdə, xususilə səlcuqlar dövründə bir sıra şəhərlərimizin inkişaf səviyyəsinin yüksək olduğunu və öz xüsusiyyətlərinə görə seçildiyi ön plana çıxartıldı;

8. Səlcuq türklərinin gəlişi ilə buraya köç edən oğuz tayfa birliklərinin əksəriyyətinin ölkəmizdə qalmadığını, qalanların isə yerli əhali ilə qaynayıb qarışdığını və beləliklə də səlcuqların Azərbaycanı türkləşdirənlər olmadığı yeni dəlillərlə göstərildi;

9. Əsərdə bir çox Azərbaycanlı alim və din xadimlərinin adları seçilərək, onlar haqqında verilən məlumatlar tədqiqata cəlb edilmişdir;

10. Salnamədə adı keçən orta əsr Azərbaycan şəhərlərinin adları, Ərməniyyə ərazisi barəsində və Arran haqqında verilən məlumatlar da tədqiqatda xüsusi yer alır.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Qızoğlu kimdir? // - Bakı: Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsinin Elmi məcmuəsi, - 2008. № 10,- s. 427-432.
2. Sibt ibn əl-Cövzi və onun “Mir`atuz-zaman fi tərixil-ə`yan” əsəri // Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyəti tarixi problemləri XII Respublika elmi konfransının materialları, – Bakı: – 2011, – s. 345-348.
3. Erkən orta əsrlərdə Azərbaycanda elmin inkişafı //– Bakı: Elmi Əsərlər, AMEA Tarix İnstitutu, – 2012. № 41-43, – s.15-23.
4. IX-XI əsrlərdə Azərbaycanda sənətkarlıq və ticarət // – Bakı: Gənc alimlərin əsərləri, – 2013. № 8, – s. 314-320.
5. Великий султан Алп–Арслан и Азербайджан (на основе произведения Сибт Ибн аль–Джаузи "Мир–ат аз–заман фи тарих аль–айан") // - Киев: Гилея, − 2014. № 6 (85), − с.138-141.
6. Böyük Səlcuq sultanı Toğrul bəy və Azərbaycan ( Sibt ibn əl-Cövzinin “Miratuz-zaman fi tərixi-l a`yan” əsərindən edilən seçmələr əsasında) // Bakı: Gənc alimlərin əsərləri, - 2014. № 10, - s.263-268.
7. “Mir`atuz-zaman fi tərixil-ə`yan” əsəri Azərbaycan tarixinin öyrənilməsində mənbə kimi // – Bakı: Tarix və onun problemləri jurnalı, – 2014. № 2. – s. 342-347.
8. “Miratuz-zaman fi tərixi-l a`yan” əsərində Təbriz şəhəri haqqında verilən məlumatlardan (sultan Toğrul bəy dövrü), // - Bakı: Gənc alimlərin əsərləri, - 2015. № 11, - s.290-294
9. Miratuz-zaman fi tərixi-l a`yan” əsərində Təbriz şəhərində baş verən hadisələrdən // Gənc tədqiqatçıların III Beynəlxalq Elmi konfransı, − Bakı: Qafqaz Universiteti, − 17-18 aprel, − 2015, − s. 1468-1469.
10. Sibt ibn əl-Cövzünün “Miratuz-zaman”(“Zamanın güzgüsü”) əsərinə əsasən Sultan Alp Arslanın hakimiyyəti dövründə Azərbaycan // Azərbaycan Əlyazmaları dünya kitabxana
11. ” // Ukraine: GRANI,- 2024. № 3, - s. 94-97.

larında I Beynəlxalq Elmi-nəzəri konfransı, - Bakı: AMEA Əlyazmalar İnstitutu, -18 noyabr, -2016, -s.212-213.

11. Sibt ibn əl Cövzinin "Miratuz-zaman" əsərindən edilən tərcümələrə əsasən Səlcuq Sultanı Məlikşahın hakimiyyəti dövründə Azərbaycan // Türkiyə Cümhuriyyətinin yaranmasının 100 illiyi münasibətilə "Əlyazma kitabı Azərbaycan-Türkiyə elmi-mədəni əlaqələr kontekstində" mövzusunda Beynəlxalq Elmi-nəzəri konfrans, – Bakı: – 24 oktyabr, – 2023, – s.190-197.
12. İnformation about the early Futuhat period in Azerbaijan in the work "Miratuz-zaman" // Proceedings of the 6th International Scientific and Practical Conference «Experimental and Theoretical Research in Modern Science», – Moldavia: – 16-18 march, – 2024, – s.126-127.
13. İnformation about Early Futuhat Period in the Work of "Mirat-al-zaman" // Ukraine: GRANI,- 2024. № 3, - s. 94-97.

Dissertasiyanın müdafiəsi 24 oktyabr 2024-cü il tarixində saat 13⁰⁰ da Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən BED 1.30/1 Birdəfəlik Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan : Az.1073, Bakı şəhəri , 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 23 sentyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 19.09. 2024

Kağızın formatı: A5

Həcm: 39325

Tiraj: 100